# Hüseynbala Mirələmovun yubileyi qeyd edildi





İyunun 25-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda tanınmış yazıçı-dramaturq Hüseynbala Mirələmovun 80 illik yubileyi qeyd edildi.

Tədbiri giriş sözü ilə Xalq yazıçısı Çingiz Abdullayev açdı. Hüseynbala Mirələmovu gözəl insan, məhsuldar yazıçı kimi dəyərləndirdi. Bədii, elmi, publisistik kitabların müəllifi kimi tanındığını vurğuladı. Tədbirin aparıcıs Əsəd Cahangir Azərbaycan ədəbiyyatında, publisistikasında, ictimai həyatında özünəməxsus yeri olan yazıçı-dramaturq Hüseynbala Mirələmovun yaradıcılığından söz açdı.

Qeyd etdi ki, H.Mirələmov elə bir yazıçıdır ki, daim həyata açıqdır. O nə yazıbsa, Allaha, insana məhəbbətlə yazıb.

Xalq yazıçısı Anar: "Çox şadam ki, Hüseynbala müəllim kimi bir yazıçının yubileyini qeyd edirik. Onun haqqında yazılarım da olub. 55 ildir tanıyıram. Bu yaşda da məhsuldardı".

Daha sonra Anar müəllim Yazıçılar Birliyinin fəxri diplomunu yubilyara təqdim etdi.

Sonra professor İslam Qəribli Hüseynbala Mirələmovun həyat və fəaliyyəti haqqında məruzə etdi.

Akademik Nizami Cəfərov: "H.Mirələmov haqqında çox yazılarım olub. Onun böyük siyasi xadim Heydər Əliyev haqqında yazdığı kitab 50-dən çox dilə tərcümə olunub. Onun yaradıcılıq üslubu da fərqlidir. Tarixi mövzularda yazdığı kitablar xüsusilə təqdirəlayiqdir.

Sankt-Peterburqdan gələn qonaq - Əməkdar jurnalist Oleq Kuzin: "Məni H.Mirələmovla dərin dostluq telləri bağlayır. Arzu edirəm ki, o həmişə belə həyat eşqli olsun".

Millət vəkili Fəzail İbrahimli, "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, AYB-nin katibləri Elçin Hüseynbəyli, Səlim Babullaoğlu, professorlar Minaxanım Təkləli, Elman Quliyev, millət vəkilləri İlham Məmmədov, Azər Badamov, Cavanşir Paşazadə və başqaları da çıxış etdilər.

Tədbirdə yubilyarın ədəbiyyatın fərqli janrlarındakı əsərlərindən danışdılar, ən xoş sözlərlə təbrik etdilər.



